

■ Günel Şamilqızı

**Bağıyeva Günel Şamil qızı - 1988-ci ildə Abşeron rayonunun Digah qəsəbəsində doğulub. Azərbaycan Dövlət Padaqoji Universitetində 2006-2010-cu illərdə bakalavr, 2010-2012-ci illərdə magistr təhsili alaraq "Pedaqogika tarixi və nəzəriyyəsi" ixtisasına yiyələnib. 2011-2013-cü illərdə Bakı Slavyan Universitetinin "Yaradıcılıq" fakültəsində təhsil alıb.**
**Şeirləri mütəmadi olaraq dövrü mətbuatda çap olunur. 2011-ci ildə Azərbaycan Yazıçılar Birliyinə üzv qəbul edilib və prezident təqaüdünə layiq görülüb. Müasir Ukrayna, Belçika, rus və fin ədəbiyyatının bir sıra məşhur ədəbi nümunələrinin tərcüməçisidir.**

## İKONA

Bütün obalarda qaraçılar var,
Ən köhnə daxmalar bənzəyir rusa,
Mənəsə komalar doğmadı hələ
Bir də evlər - əgər mənim də olsa.

Səni öz evindən mən qovdum o vaxt,
Qayıt, qoy uçulsun bu hasar suçum.
Söküb kandarını köhnə daxmanın
Sənə qapı boyda pəncərə açım.

Bu koma, bu daxma ev ömrü görüb
O vaxt özül bilib quyu qazardım.
Səni uduzmağa mən çağırmışdım,
Uduzub özünü, məni qazandın.

İsanın çarmıxı düz bizə baxır,
Nəsimidən qalan qürub sarımı?
Bütün ikonalar daxıl kimidi
Udub saxlayıblar dualarımı.

Çox güman bu evdə mən də əşyayam,
Dua qonduraram susqun dillərə.
Xaçlı, bax, ovcumda mismar yeri var
Bir müsəlman eşqi dolur o yerə.

yaxınlığın ağrısı və ya ağrısızlığı.
Gözüm bilir gördüyünün adını:
- ulduz,
- qığılcım,
- ya da köz.

Sən! Sən, ey mənim dibimə enmiş adam:
Yalnız sən bilirsən, mən kiməm, nəyəm:
- quyuyam,
- uçurumam,
- yoxsa adam?

Tanıdığın bir qız yanında olanda
tez-tez barmaqlarına baxırsa:
- ya əlini yandırıb,
- ya dırnaq boyası təzədi,
- ya da sevir səni.
Ona üzük al, dostum.

## OTAQ

Mən də bir otağam, boşluğu udmuş,
Darlığın heç kəslə bölməyən otaq.
İçində bir yığın adam gəzdirib,
Ən əziz qonağı gəlməyən otaq.

Dibi deşik qazanın deşiyindən
baxmayın bizə
Dibsizdi baxışlarımız
azarsız.
Bizli-sizli acgözük onsuz da
Gəl dəyişək qidamızı.

Sizə qucaq dolusu boynubükük,
Amma boynubükük-boynubükük
gülümsəyən
Günəbaxanlar verək.
Baxan... Yalnız Günə...
Verək... Siz də verin hərdən.
Nəsə verin - gülllədən başqa!

Gəl dəyişək dilimizi,
mənə dua avazında serenada oxuyun.
Didin papağımızın pırpız tüklərini
Amma kəkilimizin sığalını pozmayın.
Onsuz da bir-birinə düşməndi bütün
saçgizlədənlər
Axır-əvvəl uduzacağıq tüklərimizi
ləçəklərə,
papaqlara...

## PALTAR

Yad paltarda keçən ömür
Allah bilir, hara axır.
Bu bədən həminkidirmi?
İçində ruhum darıxır.

Mən alanda təptəzəydi,
Bir-bir qırdım düymələri.
Öz ruhumun paltarına
Özüm vurdum döymələri.

Əzdim, ütüyə gəlmədi
Sonra kimsə tapdaladı.
Ətəyindən tutdu divlər,
O tüpürdü, bu yaladı.

Düz sol döşümün altından
Sökülür, çürüyür indi.
Başdan ayağa ləkədi
Yuya bilmirəm, mən pinti.

Hanı bu paltarın rəngi?
Yazdı, qışdı bomboz qalıb.
Mən tikirəm, o sökülür
Elə sapım da az qalıb.

Bu yaşda bu qədər yamaq.
Ağırdı, iynəm, ağırdı.
Bu gün də yamaq vururdum,
Bu gün də Allah baxırdı.

## MƏNİ UNUTMAĞA NƏ VAR Kİ, DOSTUM

Mən bir iş bilirəm, hamı bacarır
Yorğanın altında ağlamaq kimi.
Bu gün böyütdüyün təkliyi sabah
Torpağın altda da saxlamaq kimi.

Bu gün istiotun vətəni mənəm,
Bu gün işim-peşəm acı salmaqdır.
Bu gün bildim, dostum, ən böyük arzum:
Hamıyla heç kimsiz - tənha qalmaqdır.

Çoxdan susadığım rahatlıq varmış,
Bütün dostlarımı unutmaq kimi.
Sonra təmiz-təmiz yalan danışmaq...
Azad! Öz-özümü aldatmaq kimi.

İnan ki, payız da qış kimi şeydir,
Təklikdə hər fəsil bir cür soyuqdur.
Amma soyuğun da öz ləzzəti var
Çoxdandır istidən bağrım oyuqdur.

Məni unutmağa nə var ki, dostum,
Daha yaddaşında qala bilmərəm.
Sənin nə vaxtını, nə ürəyini
Sənin heç nəyini ala bilmərəm.

Mən sizi vaxtından əvvəl görmüşəm
Gecdir, mənə görə eynək taxmayın.
Şəhərin alnına elan vurmuşam
Vurmuşam ki: "Heç vaxt mənə baxmayın!"

Beliniz bükülər, bir az alçağam
Sığmazsız içinə, qəlbim kiçikdir.
Bizdə meyvələri kal dərir külək
Sınmış budaqların şirəsi çiydir...

Məni unutmağa nə var ki, dostum!

## BÖYÜMƏK CİNAYƏTİ

Fürerdi, sultandı, kraldı hakim.
Demokrat da olar istəsə əgər.
Edam qərarını qürurla versin,
Güllə, zəhər, ya ip, ya... nə fərqi var?

Kifayət qədərdi sübutlarınız,
Məni ələ verən hər şeyi deyin.
Təqsirli bilinən ilk şəxs deyiləm,
Axı sizə dedim, fikirləşməyin!

İtaətim belə sorğu-sualsız
Və bütün qərarlar qəddarlıq dadır.
Ədalətli qərar gözləmirəm heç,
Yəqin ədalətli olan da budur.

Rəzalət dövründə doğulmuşam mən,
Başım gicəllənib tətik çəkməkdən.
Böyüyə bilmədim axıra kimi
Əllərim soyulub iməkləməkdən.

Müttəfiqim yoxdu, vur-tut özüməm
Ciddi təsirim də özümədir tək.
Suiqəsd yarımçıq qalıb həmişə
Həmişə səhv nişan almışam, neynək...

Uşaqlar böyüyüb adam olacaq
Kim durdura bilər bu cinayəti?
Məhkəmə üçünsə bütün bunların
Heç vaxt olmayacaq əhəmiyyəti.

Heç nəyə cavabdeh deyiləm, vəkil,
Bir gün böyüyəcək mənim də körpəm.
O ali imzada əmr dadı var,
Şübhə yeri də var, düzünü desəm.

İnsanlar böyüyüb keçmiş olacaq
Başqa nə deyim ki hər dindirənə?
Son ümid də yeyir son sözlərimi
Qərar hakimindi, su verin mənə.

## KAFİR QIZININ BEYRƏYƏ DEDİKLƏRİNDƏN

Gör məni harda tapmışdın,
Hansı günahındım, igid?
Mən səni harda qazandım,
Hansı halalımsan, igid?

Getdi gül dərən vaxtların,
Məni əllərin dərmədi.
Məni gözlərin dərmişdi,
Niyə əlinə vermədi?

Üç öpüb, iki dişlədin,
Nədi çatmayan, çatmayan?
Gündüz gördüyü yuxudan
Gecə yatmayan, yatmayan.

Ən dadlı yerində doydun,
Daha qalanın almadın.
Qurtardı ucuz olanım,
Baha olanı almadın.

Gələndə - susuz igidim,
Gedəndə - bulaq igidim.
Səni kim bulaq elədi,
Necəydin qabaq, igidim?

Gözü yolda qalanın var,
Gözlərimə baxma daha.
Gedib dolsan o axara,
Bir də yola çıxma daha.

Orda özünə sorarsan,
Sənin tapdığın səndədi?
Səndən böyükmüşəm, igid,
Mənim qazancım məndədi.



## GƏMİMƏ

Gəl səsimə güldan ol
Qəlibləri düz mənə.
Əkməyə heç nəyim yox
Toxum şəkli çiz mənə.

Təmiz-təmiz tanrılar
Dua girdabındadı.
Qıyımsızdı adamlar
Səslər söz qınındadı.

Sən verən güldanların
Gül görməyib ki bətni
Güldan olmağa nə var,
Gül olmaqdı çətini.

Adam güldanı gəmim,
Üzmə üzü küləyə.
Mən nə güldan gülüyəm,
Nə də qurban fələyə.

* * *

Əl-ələ tutmuş iki insandan biri mütləq:
- ya xəyanət edir,
- ya sevir,
- ya da sadəcə əl tutur yıxılacaq adama.

Yalnız sevən bir kişi arzulayır
"q" hərfi ilə başlayan bu üç sözün
üçünün də bir adamda sıralanmasını:
- qız,
- qadın,
- qarı.

Uzaqlıqla ölçülmür

## HƏVVA SEVGİSİ

Dərd uydur, əzizim, bir az ağlayaq
Səninlə sevinmək bəs etmir daha.
İndi dünyadan da qovulmaq üçün
Batmaq istəyirəm yeni günaha.

Milyon illər sonra görüşdük, gülmə
Heç kim yarısını belə gözlətmir.
Hələ də palçıqsan, qurumamısan
Ən qalın paltar da səni gizlətmir.

Bəşər beşiyində beş günlük yatıb,
Ayılıb bizi də tanımayacaq.
Tanrı bağışlasa, qayıtsaq ora
İnan, heç kəs bizi qınamayacaq.

Mənə bir qabırğa boşluğundakı
Ağrıdan danışma, o ağrı mənəm!
İndi qucağına bərk-bərk sığınsam...
Can, özün bilirsən, lüzum yox dinəm.

Ağlımda sözləri unutmaq vardı,
Sən mənim dilimi bilənə qədər.
Gəl gedək dünyadan, görək cənnəti
Bir də söyləmərəm: O almanı dər!

## BARTER

Biz, satmağa heç nəyi olmayan səhra adamı
Siz, əllərinizdə sidik kisəsi boyda qumbaralar
Gəl dəyişək bazarımızı.